# Azərbaycan regionun yeni reallıqlarını diktə edir

**Dünya praktikasında kimin özünü harada necə aparmasından asılı olmayaraq, hər kəsin etiraf edib barışmalı olduğu danılmaz reallıqlar mövcuddur. Bu gün Cənubi Qafqaz regionunun da özünəməxsus gerçəklikləri var və onları məhz qalib Azərbaycan dövləti diktə edir.**



*Biz düşməni torpağımızdan qovduq və yeni reallıq yaratdıq. Bu reallığı hamı etiraf etməlidir.*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Birinci Qarabağ müharibəsində torpaqlarının 20 faizini itirmiş Azərbaycan 1994-cü ildə imzalanmış atəşkəs razılaşmasından sonra işğalçı Ermənistanla uzunmüddətli sülh danışıqları apardı. Lakin baş nazir Nikol Paşinyanın “Qarabağ Ermənistandır və nöqtə” kimi sərsəm deyimi, digər təxribatçı fəaliyyəti nəticəsində həmin danışıqlara son qoyuldu. Azərbaycan Prezidenti İlham Əliyev həmin həyasız şüara cavab olaraq, mötəbər beynəlxalq tribunadan qətiyyətlə “Qarabağ Azərbaycandır və nida işarəsi” dedi.

Dövlətimizin başçısı öz sözlərini real əməllərlə sübuta yetirdi və ötən il sentyabrın 27-də qarşı tərəfdən növbəti hərbi təxribat baş verincə, Silahlı Qüvvələrimizə genişmiqyaslı əks-hücum əməliyyatlarına başlamağı əmr etdi. Qısa müddət ərzində – cəmi 44 günə əzəli-əbədi yurd yerlərimiz məkrli düşməndən təmizləndi. Ermənistanı sülhə məcburetmə əməliyyatları uğurla yekunlaşdı və BMT Təhlükəsizlik Şurasının illərdən bəri havadan asılı qalmış məlum qətnamələri həyata keçirildi. Bölgədə məhz Azərbaycanın xeyrinə yeni reallıqlar yarandı.

Bəli, cənab İlham Əliyev torpaqlarımızın hərbi güc vasitəsilə işğaldan azad edilməsi zərurətini siyasi-diplomatik müstəvidə beynəlxalq hüquq baxımından elə əsaslandırmışdı ki, hər vasitə ilə düşmənə dəstək olan havadarları belə Azərbaycanın haqq işi olan zəfər yürüşünə açıq etiraz edə bilmədilər. Hərbi əməliyyatlar yolu ilə Cəbrayıl, ardınca Füzuli, Zəngilan, Qubadlı alındı. Xocavənd, Ağdərə və Xocalı rayonları qismən azad edildi, qoşunlarımız Laçına daxil oldular. Noyabrın 8-də Şuşa şəhəri işğaldan qurtardı.

Rəşadətli ordumuzun “ildırımsürətli” zəfər yürüşü nəticəsində Ermənistan məcbur olub məğlubiyyəti qəbul etdi və işğalda saxladığı ərazilərdən geri çəkildi. Noyabrın 10-da Nikol Paşinyan Rusiya Federasiyasının vasitəçiliyi ilə kapitulyasiya aktına bərabər olan Üçtərəfli Bəyanatı imzaladı. Daha sonra Ağdam, Kəlbəcər və Laçın döyüşsüz təhvil verildi və bununla da Azərbaycan böyük Qələbə qazanaraq mənfur düşmən tərəfindən Qarabağın 30 illik işğalına son qoydu. Bu möhtəşəm Qələbənin əldə edilməsi möhtərəm Prezidentimizin uzaqgörən siyasətinin, ordumuzun hərbi qüdrətinin və xalqın böyük birlik əzminin misilsiz təntənəsi idi.

Dövlətimizin başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyev dekabrın 1-də xalqa müraciətində bildirdi ki, regiondakı yeni reallıqlar Azərbaycanın işğaldan azad edilmiş əraziləri bərpa etməsini və məcburi köçkünlərin öz ata-baba yurdlarına qayıtmasını şərtləndirir. Burada möhkəm sülh bərqərar olmalı, beynəlxalq nəqliyyat – logistika şəbəkəsi yaradılmalı və region ölkələri mehriban qonşuluq prinsipləri əsasında dinc, yanaşı yaşamalıdırlar.

Məlum olduğu kimi, 10 noyabr bəyanatı tarixi Azərbaycan şəhəri olan, xalqımızın mədəniyyət paytaxtı Şuşanın Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilməsindən dərhal sonraya təsadüf edib. O zaman Paşinyan mütiçəsinə etiraf etməli olub ki, Ermənistanın məğlubiyyətlə barışmaqdan başqa çıxış yolu yox idi. Aşkar reallıqla barışmaqda tərslik göstərənlər onu, bax, beləcə, qəbul etməyə məcbur olurlar. Bu yerdə “Adın nədir – Daşdəmir, yumşalısan, yumşalı” məsəli yada düşür.

Tarixi 10 noyabr bəyanatının şərtləri Cənubi Qafqazda yeni inkişaf və quruculuq imkanları yaradıb. Bu sənədin ehtiva etdiyi Rusiya-Türkiyə koordinasiya və əməkdaşlığı böhranı tamamilə çözməyə imkan verəcək. Ümumilikdə isə reallığı dəqiq və dolğun şəkildə əks etdirən bəyanat münaqişənin ədalətli və hər iki ölkə xalqının mənafeyinə uyğun olaraq uzunmüddətli və hərtərəfli həlli üçün zəruri şərtləri təmin edir. Razılaşmaya görə, hər iki tərəf hərbi əməliyyatları dayandırmalı, əsirlər “hamının hamıya” prinsipi ilə dəyişdirilməli, iqtisadi və nəqliyyat əlaqələri bərpa edilməlidir. Rusiya sülhməramlıları ermənilərin yaşadıqları ərazilərdə atəşkəsə və əsirlərin mübadiləsinə nəzarət edirlər. Ermənistan Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat və kommunikasiya xətti təmin etməlidir. Bu isə daha geniş anlamda Türkiyənin Azərbaycanla birbaşa quru əlaqəsinin yaradılması və Xəzər dənizi vasitəsilə Orta Asiyaya, böyük Turan dünyasına çıxışın təmin edilməsi deməkdir.

Bu gün artıq dost ölkələrlə strateji tərəfdaşlığın möhkəmlənməsi istiqamətində mühüm addımlar atılır. Zəngəzur dəhlizinin başlanğıcı sayılan yolun təməlinin qoyulması gələcəyə inamı daha da artırmışdır. Reallıq budur və kimsə bundan qaça bilməz.

Hazırda Azərbaycan Ordusunun döyüş meydanında əldə etdiyi Qələbə nəticəsində regionda yaranmış yeni reallıqlar başdan-başa talan olunmuş Qarabağın dirçəldilməsinə imkan yaradıb. İşğaldan azad edilmiş Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Şuşada və digər ərazilərimizdə infrastruktur yenidən qurulur. Birinci Qarabağ müharibəsi zamanı ölkənin digər bölgələrinə qaçmağa məcbur olmuş 1 milyona yaxın həmvətənimiz bərpa-quruculuq tədbirlərindən sonra daimi yaşamaq üçün öz dədə-baba yurduna qayıtmağa hazırlaşır.

Qarabağda erməni işğalçıların vəhşi qəbilə təfəkkürünün nəticəsi olaraq, ərazilərimiz, demək olar ki, tamamilə dağıdılıb, orada infrastruktur, evlər, inzibati binalar sökülüb. Hazırda vurulan ziyanın miqyası dəqiqləşdirilir və buna görə qarşı tərəf beynəlxalq məhkəmə qarşısında cavab verəcək. Azərbaycan tərəfi bəyan edib ki, hazırda 50 milyard dollara çata biləcək həmin maddi ziyanın ödənilməsi üçün Ermənistana qarşı təzminat tələbi hazırlanır.

Əlbəttə, erməni vandalizminin nəticələri zamanla tam aradan qaldırılacaq. Azərbaycan bölgənin yenidən qurulması üçün səylərini və vəsaitini əsirgəmir. Biz işğaldan azad edilmiş torpaqlarda həyatı yenidən, özü də sürət və keyfiyyətlə bərpa etməkdə israrlıyıq. Prezident İlham Əliyevin bu barədə söylədikləri hər kəsdə böyük xətircəmlik yaradır: “Bütün rayonlarımız bərpa olunacaq, vətəndaşlarımız üçün normal həyat şəraiti yaratmaq üçün bütün addımlar atılacaqdır... Genişmiqyaslı quruculuq işləri aparılacaq. Əlbəttə ki, Azərbaycan şirkətləri ilk növbədə bu işlərdə iştirak edəcəklər. Bizim üçün dost olan ölkələrin şirkətlərini də biz dəvət edəcəyik. Daha doğrusu, artıq dəvət etmişik”.

Vacib bir özəllik bundan ibarətdir ki, Qarabağda bütün bərpa, abadlıq və quruculuq işləri ən müasir tələblər səviyyəsində həyata keçirilir. Şair demişkən, külli-Qarabağın abi-həyatı nərmənazik bir bayatıya çevrilir. “Ağıllı şəhər” və “ağıllı kənd” layihələri, “yaşıl enerji” mənbələri, daha məhsuldar kənd təsərrüfatı sahələri çox keçməyəcək ki, dünyanı heyran qoyacaq. Torpaqlarımızın işğalda qalması üzündən dünənədək utana-utana sevdiyimiz Qarabağı artıq qürur duya-duya dirçəldirik. Bu yerlərin uğrunda şəhid olub vətənləşən, bayraqlaşan oğulların sayəsində geri aldığımız ərazilərin yaralarını əsl övlad şəfqəti ilə sağaldırıq.

Bu ilin əvvəlində Prezident İlham Əliyevin Böyük Britaniyanın Avropa qonşuluğu və Amerika məsələləri üzrə dövlət naziri xanım Vendi Mortonla görüşündə qeyd olunub ki, Britaniya şirkətləri ilə ölkəmizin işğaldan azad edilmiş ərazilərində yenidənqurma işlərinə dair müzakirələr aparılır və bu istiqamətdə əməkdaşlıq üçün böyük potensial var. Xüsusilə də bərpa olunan enerji sahəsində. Dövlətimizin başçısı deyib: “Mən Britaniya şirkətlərinin bu məsələlərdə işləməyə maraq göstərdiklərini bilirəm. Çox yaxşı günəş, külək, su potensialı var. Beləliklə, biz artıq işğaldan azad edilmiş ərazilərdə gələcəyimizi planlaşdırırıq”.

Əlavə edək ki, biz Günəş, külək və su potensialı ilə bərabər, əzm, təpər və qətiyyət potensialımızın sayəsində də Qarabağımızı gülüstana çevirəcəyik. Təkcə bir fakt bütün dünyada heyrət doğurur ki, Azərbaycan Füzuli Beynəlxalq Hava Limanını ən rekord müddətdə – cəmi 8 ay ərzində inşa edərək istismara verib. Hazırda Qarabağda daha iki belə aeroport tikilir. Bu, Azərbaycanın çox möhkəm qanadlarla öz istiqbalına yön almasının reallığıdır.

Nikol Paşinyan Şuşada sərxoş halda “yallı” gedəndə, Arayik Arutyunyan qondarma DQR-in parlamentini Şuşaya köçürmək üçün orada bina tikdirməyə başlayanda, ATƏT-in Minsk qrupunun Avropadan olan həmsədrləri ermənipərəst mövqedən bəyanatlar verəndə, din-dil qardaşımız sayılan qonşularımız Xankəndiyə qanunsuz yanacaq, silah-sursat, narkotik və sair daşınmasına rəvac verəndə günün reallıqlarını görmək iqtidarında deyildilərmi? Axı, sonradan qəbahəti etiraf etmək, müxtəlif bəhanələrə əl atmaq o qədər də səmimi təsir bağışlamır. Özlərini böyük güclər sayanlar, imperiya iddiaları ilə çıxış edənlər açıq-aşkar reallıqların etirafına məcbur olacaqlarını bilmirdilərmi? Paşinyanın siyasi kuluarlarda özünü gülünc vəziyyətə salan çıxışları, əsassız status tələbləri və bütün bunlarla bərabər, bizim Prezidentlə müqayisədə heç cür gizlədə bilmədiyi miskinlik tövrləri onun nə dərəcədə siyasi korafəhm olduğuna sübut deyildimi?

...Yadımıza 2019-cu ilin noyabrında Birinci vitse-prezidentimiz Mehriban Əlyevanın Telegram şəbəkəsində "Bizim vahid arzumuz Qarabağ şikəstəsini Qarabağ torpağında birlikdə eşitməkdir!" məzmunlu statusuna cavab olaraq Ermənistan baş nazirinin “ən yaxın silahdaşı” Anna Akopyanın Azərbaycanın möhtərəm birinci xanımını süni bir əda ilə Qarabağa dəvət etməsi düşür. Aydındır ki, bu, qaya kölgəsində yatan və əsəblərlə oynamaqdan başqa əllərindən heç nə gəlməyən ermənilərin növbəti həyasızlıq şousu idi. Əlbəttə, beynəlxalq miqyasda Azərbaycan mədəniyyətini lazımınca təbliğ etməsi, sülhpərvər missiyası, tolerantlıq və multikulturalizm ənənələrinə sadiqliyi ilə dünyada tanınan Mehriban xanım o zaman eyni səviyyə nümayiş etdirmək istəyən Annanı ondan cavab almaq şərəfinə layiq bilmədi. Amma çox keçmədi ki, müzəffər Ali Baş Komandanla bərabər dəfələrlə Qarabağa qalibiyyət səfərləri etdi. İşğaldan azad olunan rayonlarda Azərbaycan bayrağının ucaldılması mərasimlərində iştirak etdi. Heydər Əliyev Fondunun xəttilə Şuşada “Xarıbülbül” musiqi festivalı keçirildi, Qarabağ şikəstəsi Cıdır düzündən ətrafa yayılaraq dağlarda əks-səda verdi. Bir sıra digər mühüm mədəni layihələr reallaşdı. Təbii ki, artıq Qarabağda yerə uzanıb snayper tüfəngini biz tərəfə tuşlamaqla oyunbazlıq edən Annanın və onun təmsil etdiyi işğalçı Ermənistan rəhbərliyinin izi-tozu da qalmamışdı. Reallıq budur! Haqq savaşının dünyaya göstərilən məntiqi nəticəsi budur!

Zamanın Ermənistan üçün acı reallığı ondan ibarətdir ki, dünya dövlətləri, nüfuzlu beynəlxalq təşkilatlar işğalçını vaxtında cəzalandırsaydılar, ifrat dərəcədə ərköyünləşməz, yeni ərazilər istəyi ilə müharibəyə başlamaz və hazırkı çıxılmaz xaos vəziyyətinə düşməzdi. Reallıqda əksini tapmayan, ədalətin müdafiəsinə çevrilməyən qətnamələr illərlə icrasını gözləməsəydi, Qarabağ yenidən müharibə alovlarına düçar olmazdı.

Xeyrin deyil, şərin tərəfində olanlar öz yanlışlarını anlayıb reallıqlarla barışmalıdırlar. Çünki Azərbaycan özünün gur səsi ilə dünyaya bu gerçəyi çatdırıb ki, artıq təkcə regionda deyil, beynəlxalq aləmdə söz sahibidir. Yeniliklərə atdığı imzalar dövlətimizin bu gün daha inamla irəlilədiyinin göstəricisidir.

**Əli NƏCƏFXANLI,**
**“Xalq qəzeti”**